***Akademik Tarih ve Düşünce Dergisi*** ***Academic Journal of History and Idea***

***ISSN: 2148-2292***
***10 (4) 2023***
*https://doi.org/ 10.46868/atdd.2023.*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received : 22.06.2023***
***Kabul tarihi |Accepted: 30.06.2023***
***Yayın tarihi |Published : 25.08.2023***

**Leyla Hüseynova**

*https://orcid.org/0009-0008-5200-9812*
*Associate professor, Azerbaijan National Academy of Sciences. Institute of History named after A. Bakihanov, Azerbaijan, l_huseyinova@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Hüseynova, L. (2023). Azərbaycan Respublikasının Təhsil Sisteminin Formalaşdırılması (1991-2011). *Akademik Tarih ve Düşünce Dergisi, 10* (4), 1028-1037.

# Azərbaycan Respublikasının Təhsil Sisteminin Formalaşdırılması (1991-2011)

***Xülasə***

*Azərbaycan Respublikasının prioritet sahələrindən biri olan təhsilin inkişafı XX əsrin 90-cı illərindən yeni məna kəsb etməyə başladı. Sovet buxovlarından azad olunan Azərbaycanın yeni ictimai-siyasi problemləri içərisində təhsilin keyfiyyətinin artırılması məsələsi xüsusilə fərqlənirdi. 1992-ci ildə Respublikada təsdiq olunan Təhsil Qanun tədris planlarının hazırlanması, ixtisasartırma və təkmilləşmə sahəsində yeni mexanizmlər irəli sürdü, müasir kadrların tədrisi ilə bağlı məsələlərə hüquqi əsas verdi. Təhsil sahəsində təkmilləşmə proseslərinin izlənilməsi və yeni perspektivlər üçün münbit şərait yaradılması baxımından təhsil sisteminin formalaşması tarixinin araşdırılması zəruridir. Cəmiyyətdə mühüm ictimai funksiyaya malik olan, düzgün qurulan təhsi sistemi şəxsiyyətin fərdi bacarıqlarını stimullaşdırır, gələcəyin mütəxəssislərini dövrün tələblərinə cavab verən biliklərlə silahlandırır. Bütün bunlar təhsil sisteminin tarixinin araşdırılmsını aktual məsələ olaraq diqqət mərkəzində saxlayır. Məqalədə 1991-2011-ci illərdə respublikanın təhsil siyasətinin formalaşdırılması istiqamətində hüquqi bazanın yaradılması məsələlərindən bəhs edilir. Xüsusilə, 1992-ci və 2009-cu illərdə qəbul edilmiş Təhsil Qanunlarının müqayisəli təhlili yolu ilə Azərbaycan Respublikasının təhsil siyasətinin bir çox prioritet məsələləri araşdırılmışdır.*

**Açar sözlər:** *Azərbaycanda təhsil, Heydər Əliyevin təhsil siyasəti, Azərbaycan Respublikasının "Təhsil qanunu", təhsil sahəsində islahatlar, bolonya sistemi*

# Formation of the Education System of the Republic of Azerbaijan (1991-2011)

***Abstract***

*In the 90s of the 20th century, the problems of education acquired particular importance for the Republic of Azerbaijan. The destruction of the Soviet influence created serious social and political problems in the republic. Improving the quality of education was one such problem. The first Education Law of the independent republic was adopted in 1992. Despite a number of deficiencies, the Law formed the legal framework for preparing and approving state standards and curricula at various levels of education, preparing the transition to new mechanisms in retraining and advanced studies, and creating organizational mechanisms for staff training and provision that meet modern needs. The history of the formation of the education system has great importance for monitoring the dynamics of education and defining its new perspectives. For this reason, the study of the education policy of the Republic of Azerbaijan is one of the crucial problems of modernity. This paper examines the legal framework created for the formation of the education policy of the republic from 1991 to 2011. Based on a comparative analysis of the Education Laws adopted in 1992 and 2009, priority issues of the state's education policy are studied.*

***Keywords:*** *Education in Azerbaijan, educational policy of Heydar Aliyev, "Law on Education" Azerbaijan Republic, educational reforms, Bologna system*

## Giriş

Azərbaycan Respublikasının müstəqilliyinin bərpası təhsilin inkişafı tarixində keyfiyyətcə yeni mərhələnin əsasını qoyub. Bu dövr təhsilin məzmununun milli dövlətçilik prinsipləri və azərbaycançılıq ideologiyasına uyğun yenilənməsi, bütün təhsil pillələrində əsaslı islahatların aparılması, ölkənin ehtiyaclarına uyğun rəqabətədavamlı kadr hazırlığı və insan kapitalının formalaşdırılması mərhələsi kimi təhsil tarixinə düşmüşdür. Azərbaycanın müstəqilliyinin 30 ili ərzində təhsil sistemi yenidən qurulmuş və dünya təhsil sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Bu gün qloballaşan dünyada xalqın özünəməxsusluğunu qorumaq vacib məsələlərdəndir. Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, tarixi keçmişini yaşatmaq və onu nəsillərə ötürmək təhsil, elm, mədəniyyət sahəsində çalışanları diqqətli, həssas olmağa vadar edir. Xalqın varolmaq mücadələsinin öyrədilməsi gəncləri əsl Azərbaycan vətəndaşı olmağa yönəldir.

Azərbaycanın müstəqilliyinin ilk illərində ölkədə yaranmış çətin ictimai-siyasi vəziyyət təhsil sisteminə də ağır zərbə vurdu. 1988-ci ildə təhsildə başlayan tənəzzül 90-cı illərin əvvəllərində daha da dərinləşdi. Ölkədə ictimai-siyasi vəziyyətin qeyri-sabitliyi, dağıdıcı meyillərin çoxalması bütün sahələrdə olduğu kimi, təhsil sistemində də tədris prosesinin tez-tez pozulmasına, ali təhsil müəssisələrinin binalarının, ərazilərinin və avadanlığının mənimsənilməsinə, başqa məqsədlər üçün istifadəsinə, maddi-texniki bazanın dağıdılmasına, bu kimi digər neqativ halların baş verməsinə səbəb oldu. Ölkədə hökm sürən siyasi xaos təhsil, elm, savadlılıq kimi ümumbəşəri dəyərlərə zərbə vurdu, nəticədə vaxtilə cəmiyyətdə böyük hörmət və nüfuza malik olan məktəbə, müəllimə, ziyalıya hörmət, təhsilə maraq azaldı.

Təhsilin inkiaf dinamikasını izləmək və yeni perspektivlər üçün münbit mühit yaratmaq üçün təhsil sisteminin formalaşması tarixini araşdırmaq aktualdır. Belə ki, dövlətçilik strukturunun dayaqlarından biri təhsil sisteminin qurulması və onun dünya standartlarına uyğunlaşdırılmasıdır. Bu baxımdan Azərbaycan Respublikasının təhsil siyasətinin araşdırılması məsələsi aktuallığını qoruyur. Mövzunun müəyyən tərəfləri 1998-2013-cü illərdə Azərbaycan Respublikası Təhsil naziri olmuş Misir Mərdanovun "Azərbaycan təhsili tarixi" (Mərdanov, I. C., 2011) adlı çoxcildli kitabında tədqiq edilib. Birinci cild xronoloji ardıcıllıqla qədim və orta əsrlərdə, XIX və XX əsrin əvvəllərində (Azərbaycan Xalq Cümhuriyyəti dövründə) Azərbaycan təhsilinin tarixinə həsr olunmuş, ikinci cilddə (Mərdanov, II. C., 2011) müəllif Azərbaycan təhsilinin tarixini problemlər üzrə araşdırmışdır. Ümumi orta təhsilin inkişafı, xüsusi məktəblərin təşəkkülü, texniki peşə təhsilinin, ali təhsilin inkişafına dair faktlar, statistik materiallar kitabın tədqiqat istiqamətidir. Müəllif üçüncü (Mərdanov, III. C., 2011) və dördüncü (Mərdanov, 2012) cildlərdə müstəqillik illərində Azərbaycan Respublikasının Təhsilinə aid faktoloji materialları bir yerə toplanmışdır. Kitablarda 2009-cu ilin Təhsil Qanunundan irəli gələn yeni hüquqi bazaya geniş yer verildiyindən mövzunun araşdırılmasında əhəmiyyətə malikdir. Təhsilin ayrı-ayrı sahələrində islahatlara dair məqalələr içərisində A. Səmədovun "Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı" (Səmədov, 2010) adlı dərs vəsaiti də dəyərli elmi əsərlərdəndir. Burada müəllif 2003-2010-cu illərdə Azərbaycan təhsilində aparılan islahatlara dair ümumiləşdirmələr aparmışdır.

Təqdim olunan məqalədə tarixi-müqayisə metodundan istifadə edilmiş, Azərbaycan Respublikasının Təhsil Qanunları (1992,2009) dövlətin təhsil siyasətinin ana qanunları kimi araşdırılmışdır. Azərbaycan Respublikasının təhsil sisteminin formalaşdırılması haqqında

ümumiləşdirmələr aparmaq üçün müxtəlif fərman və sərəncamlara, təhsilin inkişafını təmin edən hüquqi bazaya müraciət edilmiş, faktara əsaslanaraq təhlillər aparılmışdır.

***Əsas mətn***: XX əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının 1992-ci ildə "Təhsil Qanunu" (Azərbaycan Respublikasının, 1992, № 324) qəbul edildi. Bu qanun Azərbaycan təhsilində əsaslı yeniliklər aparmaq üçün real zəmin yaratdı. Ölkənin iqtisadi potensialının nəzərə alınmaması, təhsilin ayrı-ayrı pillələri üzrə dövlət təhsil standartlarının və tədris planlarının hazırlanıb təsdiqlənməsi, ixtisasartırma və yenidənhazırlanma təhsilində yeni mexanizmlərə keçidin hazırlanması, müasir tələbatı ödəyən kadr hazırlığı və təminatı üzrə təşkilati mexanizmlərin yaradılması qanunda təsbit edilmişdi. Həmçinin burada "Təhsilin təşkili və idarəolunması" ixtisası üzrə mütəxəssis-təhsil menecerlərinin hazırlığına başlanılması və bu istiqamətdə kadr hazırlığının ardıcıl inkişaf etdirilməsi, pedaqoji ali və orta ixtisas məktəblərində muəllim hazırlığının yeni modelinə keçilməsi, kadrların ixtisasının artırılması və yenidən hazırlanması təhsilində müqavilə mexanizmlərinin tətbiqi, əlavə pedaqoji təhsil sisteminin yeni modelinin qurulması əks olunmuşdu (ARMMA, f. 2941, s, 1, iş № 58, s. 56). Eyni zamanda, bəhs olunan qanunda diplomdansonrakı təhsil konsepsiyası, distant təhsil konsepsiyası, ixtisasartırma və yenidənhazırlanma təhsilinin təşkili modellərinin hazırlanması, təsdiqi və prosesə tətbiq edilməsi, təhsil sistemində beynəlxalq informasiya mübadiləsi mexanizminin tətbiqi, elmi-kütləvi kitabxanaların beynəlxalq informasiya kanallarına qoşulması üçün informasiya bazasının yaradılması nəzərdə tutulurdu. Sənəddə yeni standartların və islahatların həyata keçrilməsinə nəzarət etmək və qiymətləndirmək məqsədilə dövlət monitorinq sisteminin qurulması vurğulanmışdır (Mərdanov, I. C., 2011).

1992-ci ilin Təhsil Qanununun ümumi müddəalarında təhsil qanunvericiliyi və onun vəzifələri; təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri; vətəndaşların təhsil hüquqları; təhsil prosesi və ictimai-siyasi fəaliyyət; təhsil və din; dövlət təhsil standartları haqqında maddələr yer alıb. Qanunun 2-ci maddəsində dövlətin siyasətinin əsas prinsipləri belə təhlil edilib: "Azərbaycan Respublikası fasiləsiz təhsil sistemi yaratmaq siyasəti yeridir. Dövlətin təhsil siyasəti aşağıdakı prinsiplərə əsaslanır: hüquqi baxımdan hamının dövlət standartı çərçivəsində təhsil almaq imkanına malik olması; bilik, bacarıq və istedadı reallaşdırmaq üçün hamıya bərabər şərait yaradılması; təhsilin demokratikləşdirilməsi və dövlət-ictimai xarakter daşıması; təhsil müəssisələrinin müstəqilliyinin artırılması; təhsilin humanistləşdirilməsi; ümumbəşəri dəyərlərin, insan həyatı və sağlamlığının, şəxsiyyətin azad inkişafının üstün tutulması; təhsildə milli zəminin

və bölgə komponentinin gücləndirilməsi; təhsilin fərdiləşdirilməsi və differensiallaşdırılması; təhsilin məzmununun inteqrasiya edilməsi; təhsilin elmi-dünyəvi xarakter daşıması; elm, istehsalat, xarici ölkələrin təhsil müəssisələri və orqanları ilə sıx əlaqənin ictimai-siyasi və dini təşkilatlardan, hərəkatlardan asılı olmaması; təhsildə azadlıq və plüralizm; yaradıcılıq; tamlıq; varislik; çeviklik; təhsilin dünya standartları səviyyəsində olması.” (Azərbaycan Respublikasının, 1992, № 324).

Yeni ictimai-siyasi həyata yeni təhsil sistemi ilə daxil olan Azərbaycan Respublikasında islahatlara ali təhsil müəssisələrinə qəbul məsələlərinin tənzimlənməsindən və yeni qəbul komissiyasının yaradılmasından başlanıldı. Azərbaycan Respublikasında ali məktəblərə tələbə qəbulunu həyata keçirmək məqsədi ilə 1992-ci il iyulun 21-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının, 1992, № 74). ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) yaradılmışdır. Tələbə qəbulu TQDK tərəfindən mərkəzləşdirilmiş qaydada, test üsulu ilə həyata keçirilməyə başlanıldı. 1992-ci ildə ali və orta ixtisas məktəblərinə tələbə qəbulu birlikdə aparılırdı. Abituriyentlər ərizələrində bu iki təhsil pilləsinin yalnız beş ixtisasını göstərə bilirdilər. Həmin illərdə imtahanlarda iştirak edənlərin cavab kartları Türkiyə Respublikasında çap edilir, imtahandan sonra onlar yenidən qardaş ölkəyə aparılıb, optik oxuyucu qurğu vasitəsilə oxunur və ixtisaslar üzrə yerləşdirmə aparılırdı. Bu, 1995-ci ilə qədər davam etdi. Ali təhsil müəssisələrinə qəbul məsələsində rüşvətxorluğun qarşısının alınması, ədalətlilik prinsipinin, ixtisasyönümlülüyün təmin edilməsi dövlətin ən prioritet məsələsi idi. Qanunun 21-ci maddəsində ali və orta ixtisas məktəblərinə qəbul haqqında yazılıb: “Ali və orta ixtisas təhsili müəssisələrində tələbə qəbulu strateji əhəmiyyətə malik olan çox mühüm dövlət tədbiridir. Qəbul imtahanlarının sayı və sorğu sistemi müəyyən olunarkən, habelə imtahanlar keçirilərkən ixtisas biliyi və bacarığına üstünlük verilir. Tələbə qəbulunda heç bir imtiyaza yol verilmir” (Azərbaycan Respublikasının, 1992, № 324). Obyektivliyin təmin olunması ehtiyacından yaradılan TQDK ilk illərdən başlayaraq 30 il ərzində ali məktəblərə qəbulu mümkün qədər ədalətli təşkil edib. Gənclərin dövlətin əsas potensialı olaraq formalaşdırılmasında təhsil siyasətinin əsas qolu kimi TQDK böyük təkamül yolu keçmişdir.

Respublikamız müstəqillik əldə etdikdən sonra inkişaf etmiş xarici ölkələrin təhsil sisteminə istinad olunaraq Azərbaycanda özəl təhsil müəssisələrinin yaradılması məsələsi meydana çıxdı. Təhsil haqqında Qanunun 13-cü maddəsinin 1-ci bəndində yazılırdı: “Azərbaycan Respublikasında dövlət və qeyri-dövlət, pulsuz və pullu təhsil müəssisələri fəaliyyət göstərir” (Azərbaycan Respublikasının, 1992, № 324).

Azərbaycan Respublikasında təhsilin özəl sektoruna da hüquqi baza yaradıldı. Belə ki, qanunun 28-ci maddəsində qeyd edilib ki, dövlət orqanları; bütün mülkiyyət formalarından olan yerli və xarici birliklər, müəssisələr, idarə və təşkilatlar; ictimai birlik və təşkilatlar; Azərbaycan Respublikasının vətəndaşları, xarici ölkə vətəndaşları təhsil müəssisəsi təsis edə bilər. Lakin təhsildə özəl sektorun yaradılması orta ümumtəhsil müəssisələrindən deyil, ali məktəblərdən başladı. 1991-ci ildə Azərbaycan Universiteti təsis edildi, Dövlət Ali Ekspert Komissiyasının (DAEK) 3 mart 1993-cü il tarixli və Təhsil Nazirliyinin Kollegiyasının 8 aprel 1993-cü il tarixli qərarı ilə qeydiyyata alındı. 1993-cü ildə Təhsil Nazirliyinin 7 may tarixli qərarı əsasında ali təhsilin çoxpilləli strukturu haqqında, ali və orta məktəblərdə ixtisaslar haqqında Əsasnamə qəbul edildi (ARTİNA, f.1, siyahı., 2, iş № 11, v. 2-5). Azərbaycan Respublikasında ali təhsilin hüquqi bazasının yaradılmasında bakalavr və magistr pillələri barədə Əsasnamələr (1995-ci il) də mühüm rol oynadı (ARTİNA, f f. 1, siy., 2, iş №13, v. 2-3). 1993-cü ilin dekabr ayında Azərbaycan Respublikası Nazirlər kabinetinin qərarına əsasən ödənişli təhsi qruplarının yaradılması özəl təhsil müəssisələrinin fəaliyyətə başlaması istiqamətində ilk addımlar hesab oluna bilər (ARTİNA, f. 1, siy., 2, iş №11, v. 1). 1998-ci ildə ölkədə artıq dövlət qeydiyyatından keçmiş 17 özəl ali məktəb fəaliyyət göstərirdi (Mərdanov, 7 oktyabr, 2011). Bir neçə il sonra (2001-ci ildə) ilk özəl məktəb – Müasir Təhsil Kompleksi açıldı.

İctimai həyatın inkişafı bütün sahələrlə yanaşı təhsil sistemində də yenilənməni labüd edirdi. Dünya təhsil sisteminə inteqrasiya məqsədilə ilk dəfə bu sistem ölkəmizdə 2006-2007-ci tədris ilindən birinci kurslarda tətbiq olundu. Bu tətbiqolunma 2006-cı ildə "Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu"nun hazırlanması əsasında reallaşdı (Abdullayeva, 26 iyun, 2010).

Bu sistemə əsasən ali təhsil müəsisələrində fənlərin sayı, auditoriya saatlarının miqdarı azaldı, tələbələr tərəfindən seçilən fənlərə ayrılan saatların miqdarı 5%-dən 20%-dək çoxaldıldı, yeni sitemin tələblərinə əsasən nəzəri həftələrin sayı 133-dən 115-ə, semestrlər üzrə auditoriya dərsləri 17-18 həftədən 15 həftəyə endirildi, ixtisaslardan asılı pedoqoji təcrübənin müddəti 18 həftəyə qaldırıldı. Humanitar fənlərinin sayı isə 10-dan 3-ə endirildi (Abdullayeva, 26 iyun, 2010).

Təhsildə gedən innovativ proseslərlə Təhsil Qanunu arasında uyğunluğun təminatı məqsədi ilə yeni qanun qəbul edilməsi zərurəti yarandığından 2009-cu ildə yeni Təhsil Qanunu (Azərbaycan Respublikasının, 2009, № 833-IIIQ), qəbul edildi.

Yeni Qanunda humanistlik, demokratiklik, bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, vəhdətlik, daimilik, varislik, liberallaşma, inteqrasiya kimi dəyərlər Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi qəbul edilib. Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır: Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq; sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

Yuxarıda təhlil edilmiş 1992-ci ilin və 2009-cu ilin Təhsil Qanunlarında dövlətin məqsəd və vəzifələrini müqayisə etdikdə zamanın tələblərindən irəli gələn hüquqi bazanın daha da möhkəmləndirilməsi müşahidə olunur. Beləliklə, Azərbaycan Respublikasının təhsilə verdiyi təminat qanunda belə ifadə olunub: mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunmada, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasında, təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir; milli təhsil ənənələrinin qorunmasına, inkişafına və innovasiyaların tətbiqinə təminat verir; dövlət xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihələr və proqramlar həyata keçirir (Azərbaycan Respublikasının, 2009, № 833-IIIQ).

Respublikamızda mərhələ-mərhələ həyata keçirilən Təhsil islahatının 2003-2013-cü illəri əhatə edən növbəti mərhələsində ümumi orta təhsilin keyfiyyətini və real tələbatlara uyğunluğunu təmin etmək üçün Kurikulum islahatı təsdiq olunmuş və bu sahədə mütəmadi olaraq işlər görülmüş, tədbirlər həyata keçirilmişdir: Kurikulum Şurası təsis edilmiş, Kurikulum Mərkəzi yaradılmış və təhsil kurikulumlarının hazırlanmasına başlanılmışdır. Ölkə miqyasında tələbyönümlü kurikulumların hazırlanmasına müəllim, tərbiyəçi, məktəb rəhbəri və təhsil mütəxəssislərinin təmsil olunduğu, eləcə də təhsillə bilavasitə bağlı olan cəmiyyət üzvlərinin iştirak etdiyi işçi və ekspert qrupları cəlb olunmuşdur.

Yeni məzmun yeni nəsil dərsliklərin hazırlanmasını zəruri etmişdir. 2003-2011-ci illərdə milli mənəvi dəyərlər əsasında müasir tələblərə uyğun məzmunda ümumilikdə 40 milyon nüsxədən çox dərslik çap edilib. Təhsil tariximizdə ilk dəfə olaraq yeni kurikulum tətbiq edilən I -IV siniflər üçün dərslik komplektləri (şagird üçün dərslik, iş dəftəri, müəllim üçün vəsait) hazırlanıb, Dərslikləri Qiymətləndirmə Şurası tərəfindən qiymətləndirilib və müsbət rəy alındıqdan sonra çap edilib. 2011-2012-ci tədris ili üçün 102 adda 3463170 nüsxə dərslik, metodik vəsait çap olunmuşdur (Mərdanov, 7 oktyabr, 2011).

**Nəticə**

İslahat dövründə ümumtəhsil məktəblərinə aid 2006-cı ildə Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasının (Milli Kurrikulumun) təsdiq edilməsi haqqında (Azərbaycan Respublikasının, 2006-cı il, № 233) Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı verildi və onun əsasında 2007-ci ildə I-IV siniflər üçün fənn kurikulumları hazırlanaraq təsdiq olundu, 2010-cu ildə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" (Azərbaycan Respublikasının, 2010-cu il, № 103) adı ilə təkmilləşdirildi. Ümumi təhsilin fənn kurikulumları Azərbaycan Respublikası təhsil nazirinin əmri ilə təsdiqlənərək, pedaqoji ictimaiyyətin istifadəsinə verildi.

İslahatlar ali təhsil pilləsi üçün də həyata keçirildi. İlk dəfə boloniya sistemi ölkəmizdə 2006-2007-ci tədris ilindən başlayaraq birinci kurslarda tətbiq olundu. Bu tətbiqolunma 2006-cı ildə "Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu"nun hazırlanması (Bakalavr hazırlığının, 2006, №251) əsasında reallaşdı. Məhz "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli Fərmanının icrasını təmin etmək məqsədi ilə 2010-cu ildə "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında qərar (Ali təhsil pilləsinin, 2010-cu il, № 75), qəbul edildi.

Respublikada 20 il ərzində heç bir məktəbəqədər təhsil müəssisəsi tikilmədiyi halda, 2008-2010-cu illərdə ilk dəfə olaraq ölkə üzrə 40 yeni uşaq bağçası tikilib istifadəyə verildi, 44 məktəbəqədər təhsil müəssisəsi əsaslı təmir edildi, müasir avadanlıqlarla təchiz olundu. Həyata keçirilən tədbirlər nəticəsində ölkə üzrə uşaqların məktəbəqədər təhsillə əhatə səviyyəsi yüksəldi. 2009-cu ildə bu göstərici 15,8 faiz idisə, 2011-ci ildə 17,6 faiz təşkil etdi (Mərdanov, 7 Oktyabr 2011).

Ölkəmizdə informasiya cəmiyyətinin qurulmasının və biliklərə əsaslanan yeni iqtisadiyyata keçidin yeni təhsil modelinə tələbatını nəzərə alaraq möhtərəm Prezidentimiz İlham Əliyev 2011-ci il iyulun 11-də "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması haqqında" sərəncam imzaladı. Həmin sərəncama əsasən Milli Strategiya layihəsini hazırlamaq üçün Dövlət Komissiyası yaradıldı. Sənəd inkişafın innovasiya mərhələsinə keçilməsi, rəqabətədavamlı milli iqtisadiyyatın formalaşdırılması və inkişaf dinamikasının sürətləndirilməsi, başlıca olaraq insan kapitalı ilə bağlı bir çox məsələlərin həllini tapmasını, o cümlədən Azərbaycan təhsilinin dünya standartlarına cavab verməsini təmin etmək məqsədi daşıyırdı.

**Ədəbiyyat**

*Azərbaycan Respublikasının Milli Məclisinin Arxivi* (ARMMA). F. 2941, siyahı, 1, iş № 58, s. 56.

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin arxivi* (ARTNA). f.1, siyahı., 2, iş № 11, v. 2-5.

ARTNA. f. 1, siyahı, 2, iş №13, v. 2-3.

ARTNA. f. 1, siyahı, 2, iş № 11, v. 1.

Abdullayeva, N. Ali təhsildə Boloniya sistemi. (2010, 26 iyun). *Səs qəzeti.*

*Azərbaycan Respublikasının Təhsil Qanunu*. Bakı şəhəri, 7 oktyabr 1992-ci il. № 324. https://e-qanun.az/framework/7956 – müraciət tarixi 22.04.22

*Azərbaycan Respublikasının Təhsil Qanunu*. Bakı şəhəri, 19 iyun 2009-cu il. № 833-IIIQ. https://e-qanun.az/framework/18343– müraciət tarixi 24.04.22

*Azərbaycan Respublikasında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*. Bakı şəhəri, 21 iyul 1992-ci il,№ 74. https://e-qanun.az/framework/7553

*Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasının (Milli Kurrikulumun) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı*. Bakı şəhəri, 30 oktyabr 2006-cı il, № 233. https://e-qanun.az/framework/11562 – müraciət tarixi 22.04.22

*Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı*. Bakı şəhəri, 23 aprel 2010-cu il, № 75. https://e-qanun.az/framework/19531 -22.04.22

*Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərin strukturunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Təhsil Nazirinin Əmri*. Bakı şəhəri, 18 aprel 2006, №251.

*Boloniya prosesi çərçivəsində* ali təhsil sahəsində aparılan islahatlar haqqında Azərbaycan Respublikasının Milli Hesabatı (2007-2009-cu illər üzrə). https://edu.gov.az/upload/file/bolonya-milli-hesabat.pdf – müraciət tarixi 30.04.23

Mərdanov, M. (2011). *Azərbaycan təhsil tarixi*. I. Cild. Təhsil.

Mərdanov, M. (2011). *Azərbaycan təhsil tarixi*. (II. Cild). (1920-1991-ci illər).Təhsil.

Mərdanov, M. (2011). *Azərbaycan təhsil tarixi*. (III. Cild). *(Müstəqillik illəri).* Təhsil.

Mərdanov, M. (2012). *Azərbaycan təhsil tarixi*. (IV. Cild). *(Müstəqillik illəri).* Təhsil.

Mərdanov, M. Azərbaycan təhsili müstəqillik illərində. (2011, 7 Oktyabr). *Azərbaycan müəllimi qəzeti.*

Səmədov, A. (2010). *Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı.* Dərs vəsaiti, Gəncə Dövlət Universiteti.